http://www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. №20 (1552) 30 noyabr 2012 - ci il Qiymәti 20 qəpik

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı



**Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:**

*1. Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasının tikintisinin tamamlanması və müasir avadanlıqla təchiz edilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Tibb Universitetinə 5,0 (beş) milyon manat ayrılsın.*

*2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.*

**İlham ƏLİYEV,**

*Azərbaycan Respublikasının Prezidenti*

**Bakı şəhəri, 19 noyabr 2012-ci il.**

## Amerikalı alim Azərbaycan Tibb Universitetində olmuşdur

**◆ Dünya şöhrətli amerikalı alim, professor Kurt Oster noyabrın 27-də Azərbaycan Tibb Universitetində olmuşdur.**



Görüşdə ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov amerikalı qonağın həyat yolundan, elmdə əldə etdiyi nailiyyətlərdən danışmışdır. Rektor bildirmişdir ki, professor Kurt Oster “kötük hüceyrələri” sahəsində sanballı tədqiqatlarına görə dünyada tanınmış birincilərdən birincisidir. MDB ölkələri arasında ilk səfərini də bizə etmişdir. Mən məmnuniyyətlə deyə bilərəm ki, cənab Kurtun bu gün Tibb Universitetində edəcəyi mühazirə əməkdaşlarımız və tələbələrimiz üçün çox faydalı olacaqdır.



Sonra professor Kurt Oster klinikanın konfrans zalında kök hüceyrələrindən müalicəvi məqsədlərlə istifadəsi mövzusunda mühazirə oxumuşdur. O, mühazirəsində bildirmişdir ki, bu sistem uşaq onkologiyası, nevroloji, sümük və qığırdaq patologiyalarında uğurla istifadə olunur.

Amerika Birləşmiş Ştatlarından dəvət olunmuş alim, professor Kurt Oster bu üsulun terminologiyası və orqan transplantasiyasındakı rolundan danışmışdır.

Sonda amerikalı alim tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırılmışdır.

Məlumat üçün bildirək ki, KURT OSTER, MD - 2006-cı ildən ABŞ vətəndaşıdır, 4 övladı var.

1958-ci ildə Kopenhagendə Gimnaziyanı bitirmiş, 1967-ci ildə Kopenhagen Dövlət universitetini bitirmiş, Tibb Doktoru dərəcəsi almışdır.

2006-cı ildən StemCare (Stemkeya) kompaniyasında Tibb Məsləhətçisi,

HumaGene (Hyumacin) kompaniyasının (Skotsdeyl, Arizona) həmtəmsilçisi, sədri, baş icraçı direktoru, baş elmi işçidir.

Həmçinin 1998-ci ildən İnterface (İnterfeys) biotech (Biotek) kompaniyasının təsisçisi, konsultantı, tibbi direktoru, Oster konsalting kompaniyasının icraçı direktorudur.

Danimarkada klinik patologiya üzrə ixtisaslaşmış, sonralar Danimarka, Kopenhagendə tibbi tədqiqatlara rəhbərlik etmiş, ABŞ-nın Texas və Arizona ştatlarının laboratoriya, tibb mərkəzində, institutlarında işlərini davam etdirmişdir.

30-dan artıq elmi işin, 30-dan artıq patentin muəllifidir.

**MƏNSUR**

**Azərbaycan Tibb Universitetinin kollektivi universitetin rektoru, Milli Məclisin deputatı, dünya şöhrətli alim, akademik Əhliman Tapdıq oğlu Əmiraslanovu 65 illik yubileyi münasibətilə təbrik edir, ona möhkəm cansağlığı, elmi, ictimai və siyasi fəaliyyətində uğurlar diləyir!**

## Böyük Elmi Şurada

**◆ Noyabrın 26-da Böyük Elmi Şuranın növbəti yığıncağı oldu. Yığıncağı universitetin rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov açaraq öncə qidalanma və kommunal gigiyena kafedrasının professoru Maqsud Qasımovu 80, insan anatomiyası kafedrasının professoru Mübariz Allahverdiyevi və ailə təbabəti kafedrasının müdiri, dosent Mustafa Salihovu 70 illik yubileyləri münasibətilə təbrik etdi onların universitetdəki fəaliyyətlərini yüksək dəyərləndirdi.**

Yubilyarlar göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, şəxsən Əhliman Əmiraslanova təşəkkürlərini bildirdilər. Bundan sonra gündəlikdə duran məsələlərin müzakirəsinə başlanıldı.



“Azərbaycan Tibb Universitetində 2011-2012-ci tədris ilində keçirilən peşə təcrübəsinin yekunları və Tibb Universiteti tələbələrinin təcrübi hazırlığının yaxşılaşdırılması” barədə istehsalat təcrübəsi dekanı, dosent Şəfa Əliyevin məruzəsi dinlənildi.

Məruzəçi müvafiq fakültə və kurs tələbələrinin 2011/2012-ci tədris ilində qış və yay imtahan sessiyalarından sonrakı peşə təcrübəsi haqqında ətraflı məlumat verərək qeyd etdi ki, Səhiyyə nazirinin 2013-cü ilə qədər fəaliyyət müddəti olan əmrinə əsasən Elmi Tədqiqat İnstitutları, Bakı şəhərində fəaliyyət göstərən Gigiyena Epidemioloji xidmət, əczaçılıq müəssisələri, o cümlədən şəhər kliniki xəstəxanaları nəzdindəki apteklər, Bakı şəhərindəki müalicə-profilaktika müəssisələri, Respublika ərazisindəki mərkəzi rayon xəstəxanaları, Naxçıvan MR və şəhər səhiyyə şöbələri tabeçiliyində olan bütün tibb müəssisələri, ATU-nun Elmi Tədqiqat Mərkəzi, klinikibiokimyəvi laboratoriyası, Tədris Terapevdik, Onkoloji və Stomatoloji klinikaları, həmçinin bir sıra özəl tibb müəssisələri təcrübə bazaları kimi tələbələrin istifadəsinə verilmişdir.

Tibb Universitetində istehsalat təcrübəsinin keçirilməsinə tədris hissəsinin rəhbərliyi ilə fakültə və peşə təcrübəsi dekanlıqları, eləcə də hərbi tibbi fakültəsi də daxil olmaqla 30 aidiyyatı olan kafedra məsuliyyət daşıyırlar.

Hərbi tibb fakültəsində 10 nəfər t/x polkovnik-leytenantı, 2 nəfər t/x mayoru, 6 nəfər mayor, 1 nəfər baş gizir, 2 nəfər baş leytenant dinləyicilərin ixtisas və qoşun təcrübəsinə rəhbərlik etmişlər.

2011-2012-ci tədris ilində 96 müəllim yay peşə təcrübəsinin, 14 nəfər qış istehsalat təcrübəsinin keçirilməsinə rəhbərlik etmişdir. Onlardan 2 nəfər professor, 16 nəfər dosent, 4 nəfər baş müəllim, digərləri assistentlərdir.

Sözünə davam edən natiq dedi ki, 48 tələbə istehsalat təcrübəsi keçmək üçün ərizələrinə əsasən öz rayonlarına göndərilmişdir. Universitet üzrə 190 tələbə istehsalat təcrübəsini Türkiyədə, 12 nəfər Almaniyada, 2 nəfər isə Amerikada keçmişdir.

Türkiyədə təcrübə keçən tələbələrdən 13 nəfəri xüsusən seçilmiş və təşəkkür almışdır.

Azərbaycan Tibb Universiteti ilə Seçenov adına I Moskva Dövlət Tibb İnstitutu arasındakı müqaviləyə əsasən moskvalı 8 tələbə təcrübəni Bakı şəhərində-Tədris Terapevtik və Onkoloji klinikalarda, 6 nəfər bizim universitetin tələbəsi isə təcrübəni Moskvada keçiblər. Hər iki universitetin tələbələri onlara göstərilən diqqətdən, yaradılan şəraitdən razı qalmış, universitet rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Türkiyədə və Avropa ölkələrində təcrübə keçən tələbələrimizin universitetimizin yeni tədris korpusları, klinikaları haqqında videomateriallar nümayiş etdirmələrinin vacibliyinə toxunan dekan bu baxımdan I müalicə-profilaktika fakültəsinin IV kurs, 55[c] qrup tələbəsi Fəttahova və V kurs 91[a] qrup tələbəsi Çələbovanın çıxışlarını yüksək qiymətləndirdi.

Onu da bildirdi ki, Beynəlxalq Tibb Tələbələri Assosiasiyası Federasiyasının Azərbaycan

**(davamı səh. 2-də)**

# ALMANİYALI PROFESSOR MÜHAZİRƏ OXUMUŞDUR

**◆ Noyabrın 28-də ATU-nun rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanov Hannover Tibb Universitetinin Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasının direktoru, Almaniya Plastik və Rekonstruktiv Cərrahlar Birliyinin prezidenti, Avropa Yanıq Cəmiyyətinin vitse-prezidenti professor Dr.Peter M.Voqtu qəbul etmişdir.**



Qarşılıqlı səmimiyyət şəraitində keçən görüşdə ikitərəfli əlaqələrin genişləndirilməsi, tələbə mübadiləsinin aparılması və yay təcrübələrinin təşkilinə dair razılıq əldə olunmuşdur.

Sonra almaniyalı professor Tədris Terapevtik Klinikanın akt zalında plastik və rekonstruktiv cərrahiyyənin tarixi, bu sahədə görülən nəzəri və praktiki işlər barədə mühazirə oxumuşdur.

Qonağı tədbir iştirakçılarına təqdim edən ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, professor Məmməd Nəsirov bildirmişdir ki, Azərbaycan Tibb Universiteti hal-hazırda dünyanın 20-dən çox ölkəsində 50-dən artıq universitetlə hərtərəfli əlaqələrə malikdir. Almaniya universitetləri ilə də sıx təmaslar qurduqlarını vurğulayan prorektor bu əlaqələrin genişlənməsində elmi-praktiki simpoziumların, konfrans və konqreslərin əhəmiyyətindən söhbət açmışdır. Məzunlarımızın Almaniyada kifayət qədər təmsil olunduqlarını diqqətə çatdıran M.Nəsirov qarşılıqlı əməkdaşlığın gələcəkdə daha da yüksələcəyinə əminliyini dilə gətirmişdir.

Dəvət üçün universitet rəhbərliyinə təşəkkürünü çatdıran professor M.Voqt tədbir iştirakçıları arasında tanış üzləri görməkdən məmnun qaldığını söylədi. Bildirdi ki, həmin tələbələrdən biri bizdə yay peşə təcrübəsi keçmişdir və hal-hazırda assistent kimi fəaliyyətə başlamışdır. Bu, bizi çox sevindirir.



Professor əsas məqsədinin Almaniyada plastik cərrahiyyənin nəyə xidmət etməsi haqqında ümumi təsəvvür yaratmaq olduğunu dedi. Bundan sonra fərqli nümunələr üzərində plastik və rekonstruktiv cərrahların uğurlarını nümayiş etdirdi, tədbir iştirakçılarının çoxsaylı suallarına cavablandırdı.

Sonda tanınmış azərbaycanlı plastik və rekonstruktiv cərrah Vaqif Qələndərin çıxışı, apardığı əməliyyatların foto-görüntüləri almaniyalı qonaqda xoş təəssürat yaratdı.

**A.KAMRANOĞLU**

# Azərbaycan Tibb Universitetində "Uroloji cərrahiyyədə patoloji amillər" mövzusunda simpozium keçirilmişdir

**◆ Noyabrın 17-də Azərbaycan Tibb Universitetində Türkiyə Beynəlxalq Tibbi Tədris Mərkəzi və Ankaranın Hacıtəpə Universitetinin birgə təşkilatçılığı ilə "Uroloji cərrahiyyədə patoloji amillər" mövzusunda simpozium keçirilmişdir.**

Simpoziumda ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov Türkiyə və azərbaycanlı tibb alimlərinin birgə iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətindən söhbət açaraq dünya tibb elmində əldə olunmuş son nailiyyətlərin kliniki patologiyanın inkişafına güclü təkan verdiyini qeyd etmişdir: "Burada anatomiyanın tibbi təbabətə yaxınlaşdırılması, klinik təbabətə tətbiqindən söhbət gedir. Anatomiya artıq kitablardan, atlaslardan oxuduğumuz bir fəndən klinik bir fənnə çevrilir. İndi bütün dünyada klinik anatomiyadan geniş bəhs olunur. Artıq bir çox yerlərdə klinik anatomiyanın tədrisinə başlanılıb. Təbabətlə məşğul olanlar, xüsusilə cərrahlar anatomiyanı yaxşı bilməlidirlər. Hətta cərrahlar ömürlərinin axırınadək anatomiyanı öyrənirlər. Mən bu baxımdan hesab edirəm ki, bu gün təşkil olunmuş simpoziumun çox böyük həm nəzəri, həm də təcrübi əhəmiyyəti var". Auditoriyada operativ cərrahiyyə, urologiya, travmatologiya, onkologiya, cərrahiyyə kafedralarının nümayəndələrini, xüsusilə gəncləri, rezidentləri görməkdən məmnunluğunu dilə gətirən rektor belə tədbirləri daha səmərəli keçirmək üçün geniş hazırlıq işləri aparacaqlarını söylədi. Qardaş Türkiyədən gələn qonaqları salamlayaraq simpoziumun işinə uğurlar arzuladı.



Tədbirdə Qafqaz Universitetinin rektoru, professor Əhməd Saniç ölkələrimiz arasında qarşılıqlı elmi və təhsil əlaqələrinin perspektivlərindən söhbət açmışdır. Simpoziumda Türkiyə Hacıtəpə Universitetinin professoru Murad Karaşen, Beynəlxalq Tibbi Tədris Mərkəzinin rəhbəri Murad Bozqurd, ATU-nun urologiya kafedrasının müdiri Sudeyif İmamverdiyev və digərləri çıxış edərək tibbin bir çox sahələrini təmsil edən mütəxəssislərin bir araya gələrək təcrübə mübadiləsi aparmalarının əhəmiyyətini vurğulamışlar.



Patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənov bildirmişdir ki, 2 ay öncə bu tədbirin Türkiyə və türkdilli ölkələr içərisində ilk dəfə Azərbaycanda keçirilməsi qərara alındı və tibbin bütün sahələrini əhatə etdiyinə görə təşkilati məsələlər patoloji anatomiya kafedrasına həvalə edildi. Əvvəlcədən noyabrın 17-də keçirilməsi nəzərdə tutulan bu simpozimun xoş təsadüf nəticəsində həm də hörmətli rektorumuz, akademik Əhliman Əmiraslanovun ad gününə düşdüyünü diqqətə çatdıran professor tədbir iştirakçıları adından Azərbaycanın dünya şöhrətli alimini 65 illik yubileyi münasibətilə təbrik etdi.

Sonra tədbirin təşkilatçılarına xatirə hədiyyələri təqdim olunmuş, simpozium bölmə iclaslarında davam etmişdir.

**M.CAVADOV**

# Azərbaycan və Türkiyə arasında səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə edilmişdir

**◆ Xəbər verildiyi kimi, noyabrın 27-dən dekabrın 3-dək ölkəmizdə "Azərbaycan-Türkiyə səhiyyə həftəsi" elan olunmuşdur.**

Bu münasibətlə ölkəmizdə səfərdə olan Türkiyə səhiyyə nazirinin müavini, professor Nihat Tosunun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 27-də Azərbaycanın səhiyyə naziri Oqtay Şirəliyev ilə görüşmüşdür.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirmişlər ki, görüşdə iki ölkə arasında səhiyyə sahəsində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi vurğulanmışdır.

Görüşdə gələn ildən etibarən azərbaycanlı həkimlər üçün Türkiyədə təşkil olunan ixtisasartırma kurslarının müddətinin 3 aya qədər uzadılması, təkmilləşmə kurslarına gedən tələbələrin sayının artırılması məsələləri də müzakirə edilmişdir.

# BÖYÜK ELMİ ŞURADA

(əvvəli səh. 1-də)

nümayəndəliyi olan «Həkim və təbib tələbələri ictiami birliyi»nin (Azer MDS) xətti ilə Avropa ölkələrində təcrübə keçmək üçün universitetimizin 200-dən artıq tələbəsi müsabiqədə iştirak etmişdir. Seçim 3 mərhələdə aparılıb. (Sənədləşmə, ingilis dilində tibbi biliklərin test üsulu ilə yoxlanılması və müsabiqə mərhələləri). 31 nəfər seçimdən sonra təcrübəni Avropa ölkələrində - 3 nəfər Almaniya, 2 nəfər Polşa, 1 nəfər İslandiya, 2 nəfər Latviya, 1 nəfər Macarıstan, 1 nəfər Sloveniya, 1 nəfər İsrail, 2 nəfər İspaniya, 1 nəfər Malta, 2 nəfər Serbiya, 3 nəfər Çexiya, 2 nəfər İtaliya, 2 nəfər Avstriya, 8 nəfər isə Türkiyədə keçmişlər.

Ş.Əliyev elmi şura üzvlərindən təcrübənin keyfiyyətini yüksəltmək üçün əməli təkliflər gözlədiyini diqqətə çatdırdı.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri İsfəndiyar İsmayılov, Elmira Əliyeva, Məhbubə Vəliyeva, Elxan Kərimov və İbrahim Əhmədov hesabatı qənaətbəxş qiymətləndirərək tələbələrin peşə təcrübəsi ilə bağlı fikirlərini söylədilər, təkliflərini irəli sürdülər.

Müzakirələrə yekun vuran Ə.Əmiraslanov nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinin əhəmiyyətinə diqqət yönəldərək bu sahədə mövcud olan problemlərin həlli yollarından danışdı. Burada səslənən bəzi təkliflərə də aydınlıq gətirərək tələbələrin xarici ölkələrdə təcrübə keçməsindən narahatlığa əsas gör-



Fotolar Cənnətalı Çingizindir

mədiyini vurğuladı. Peşə təcrübəsinin aparılmasına hər il eyni adamların cəlb olunmasını tənqid edən rektor bu məsələyə məsuliyyətlə yanaşmağın zəruriliyini önə çəkdi. İsfəndiyar müəllimin pezitentura keçməyən tələbələr üçün internaturanın saxlanılması təklifi ilə razılaşdığını dedi. Bildirdi ki, dünyada da belə praktika var, zərurət yaranarsa biz də bunu reallaşdırmağa çalışacağıq.

Azərbaycan Tibb Universitetinin 2013-cü ildə keçiriləcək akreditasiya komissiyasının tərkibinin təsdiqi haqqında tədris hissə müdiri, dosent Nəsimi Qasımov məlumat verdikdən sonra Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Arif MƏMMƏDLİ**

# Görkəmli səhiyyə təşkilatçısı, yorulmaz ziyalı və sevimli müəllim



**◆ Qidalanma və kommunal gigiyena kafedrasının professoru, gigiyenistlərin ağsaqqalı, görkəmli səhiyyə təşkilatçısı, tibb elmləri doktoru Maqsud Səfər oğlu Qasımovun bu günlərdə 80 yaşı tamam olub. M.Qasımov 1932-ci il noyabr ayının 21-də Qərbi Azərbaycanda anadan olmuş, Böyük Vətən müharibəsi illərində hələ 12 yaşında ikən əmək fəaliyyətinə başlamış və böyük əziyyətlə orta məktəbi bitirərək, Azərbaycan Tibb İnstitutuna qəbul olunmuşdur.**

1956-cı ildə ATİ-nu müvəffəqiyyətlə bitirən M.Qasımov təyinatla Tacikistan Respublikasına işə göndərilmişdir. O, Tacikistanda çalışdığı 1956-1966-cı illərdə özünü bacarıqlı həkim, yaxşı təşkilatçı kimi göstərmiş, Sanitar-Epidemioloji Stansiyasının baş həkimi, sonra rayon səhiyyə şöbəsinin müdiri və həmin rayonun baş həkimi vəzifələrində çalışmışdır. Praktiki işdən ayrılmadan elmi tədqiqat işi ilə də məşğul olmuş və Alma-Ata Tibb İnstitutunun Elmi Şurasında namizədlik dissertasiyası müdafiə etmişdir.

M.Qasımov 1966-cı ildə vətənə qayıdaraq Azərbaycan Tibb Unstitutunun ümumi gigiyena kafedrasında assistent vəzifəsində çalışmışdır. 1967-1970-ci illərdə Səhiyyə nazirliyində kənd təsərrüfatının kimyalaşdırılması və əhalinin sağlamlığının qorunması bölməsində baş müfəttiş vəzifəsində işləməklə bərabər qidalanma gigiyenası kafedrasında da fəaliyyət göstərmişdir.

1970-1980-ci illərdə, 11 il ərzində Bakı şəhərinin baş sanitar həkimi vəzifəsində səmərəli fəaliyyət göstərməklə bərabər, eyni zamanda Tibb İnstitutunun qidalanma gigiyenası kafedrasında müəllim kimi də fəaliyyətini davam etdirmişdir.

M.Qasımov 1980-1994-cü illərdə M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi vəzifəsində çalışmışdır.

1988-1993-cü illərdə Maqsud Qasımovun rəhbərliyi altında xəstəxananın əməkdaşları sanaviasiya xətti ilə mənfur erməni təcavüzkarlarına qarşı müharibədə yaralanan xalqımızın igid övladlarına yerindəcə tibbi yardım göstərmiş, ağır yaralıların isə vertolyotla Bakıya gətirilərək onları ölümün pəncəsindən xilas etmişlər. O dövrdə Respublika klinik xəstəxanası bir növ cəbhə hospitalına çevrilmişdi.

1994-1997-ci illərdə nazir müavini, respublikanın baş dövlət sanitariya həkimi vəzifəsində çalışdığı müddətdə də o, xalqına vicdanla xidmət göstərmişdir.

1997-2011-ci illər ərzində isə o, uğurla Səhiyyə Nazirliyinin Respublika Taun Əleyhinə Stansiyasının direktoru vəzifəsində çalışmışdır.

M.Qasımov uzun illər şərəflə rəhbər vəzifələrdə çalışmaqla bərabər daim elmi axtarışlarla da məşğul olmuş, tədqiqatlarını müvəffəqiyyətlə başa vuraraq 1993-cü ildə "Bakı şəhər əhalisi aqlomerasiyasının rekreasiya cəhətdən təmin edilməsi" mövzusunda dissertasiya müdafiə edərək tibb elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür. 1997-ci ildən bu günədək ATU-nun qidalanma və kommunal gigiyena kafedrasının professorudur.

Görkəmli alimin elmi tədqiqatları ciddi praktik əhəmiyyət kəsb etməsi ilə də diqqəti cəlb edir. Onun doktorluq dissertasiyası işinin nəticələri əsasında yazdığı monoqrafiyası (1996) geniş oxucu kütləsinin, o cümlədən də Böyük Britaniya Lordlar Palatası üzvünün marağına səbəb olmuş, həmin şəxs 1998-ci ildə Ümummilli lider Heydər Əliyevə ünvanladığı məktubda M.Qasımovun kitabından aldığı elmi informasiyaya istinad edərək Azərbaycanın şərq regionunda dünyanın diqqətini çəkəcək bir kurort-turizm kompleksinin inşasına başlamaq və bu məqsədlə xarici investorları da bu işə cəlb etməyə hazır olduğunu bildirmişdi.

Düzgün qidalanma, sağlam həyat tərzi, uzunömürlülüyün elmi əsaslarının yorulmaz təbliğatçısı, zərərli vərdişlərə (siqaret, alkoqollu içkilər, narkomaniya və s.) qarşı daim inadkar mübarizə aparan M.Qasımovun elmi və elmi-kütləvi əsərləri tibb ictimaiyyətinin, geniş oxucu auditoriyasının və tələbələrin stolüstü kitabına çevrilmişdir.

Alimin həyat bioqrafiyasında təcrübə işi ilə elmi axtarışlar həmişə bir-birini tamamlayır. M.Qasımov 5 elmi monoqrafiya, 14 tədris vəsaiti, 5 dərslik, 160-a qədər elmi məqalənin müəllifidir.

Professor M.Qasımovun elmi fəaliyyəti respublikanın hüdudları ilə məhdudlaşmır. O, dəfələrlə ABŞ və bir sıra Qərb dövlətlərində, MDB-i dövlətlərində, qardaş Türkiyədə keçirilən konfranslarda, konqreslərdə, simpoziumlarda Azərbaycanı təmsil etmişdir.

Professor M.Qasımovun rəhbərliyi və köməkliyi ilə onlarla həkim doktorluq, namizədlik dissertasiyası müdafiə etmiş və indi ölkəmizin bir sıra elmi-tədqiqat, təcrübi idarə və müəssisələrində fəaliyyət göstərirlər.

O, səhiyyə sahəsində uzun illər göstərdiyi xidmətlərinə görə Qırmızı Əmək Bayrağı, Xalqlar dostluğu, «Şərəf nişanı» ordenləri, 12 «Əmək rəşadəti» medalı, akademik Y.Məmmədəliyev adına medal və mükafat, Hacı Zeynalabdin Tağıyev fəxri diplomu və Səhiyyə Nazirliyinin fəxri fərmanları ilə təltif olunmuşdur.

Azərbaycan səhiyyəsinin inkişafında, tibbi kadrların yetişdirilməsində böyük xidmətləri olan, M.Qasımov həmişə ictimai və siyasi sahələrdə fəallığı ilə də fərqlənmişdir. 1993-cü ilin yanvarında Maqsud Qasımov və onun rəhbərlik etdiyi kollektivdən 50 nəfərin YAP sıralarına qoşulması ilə Yasamal rayonunda YAP-ın özəyi yaradıldı və Maqsud müəllim bu özəyin fəallarından biri oldu. Alim 20 ildən çoxdur ki, Respublika Ağsaqqallar Şurasının fəal üzvüdür.

Universitetin, fakültənin və ixtisaslaşdırılmış elmi şuraların üzvü olan M.Qasımov universitet kollektivi və tələbələrin dərin hörmətini qazanmış, xalq arasında böyük nüfuz sahibidir.

Yorulmaz həmkarımıza möhkəm cansağlığı və yaradıcılıq müvəffəqiyyətləri, ailə səadəti, özünün ifadə etdiyi kimi 100 il həddini indiki gümrahlıqla arxada qoymasını arzu edirik.

**Aydın MƏMMƏDOV,**
*Tibbi Profilaktika və tibbi biologiya fakültəsinin dekanı*
**İbrahim Əhmədov,**
*Qidalanma və kommunal gigiyena kafedrasının müdiri*

# Həyatın mənasını elmdə görən alim

**◆ Tibb elmləri doktoru, professor Mübariz Allahverdiyev üçün illərlə qazandığı sərvət bilik, təcrübə, etimad, insanların hörmət və məhəbbətidir. Onu işləməkdən, yazıb-yaratmaqdan, oxuyub-öyrənməkdən yorulmağa qoymayan da bu amillərdir.**



Mübariz Allahverdiyev Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrasının professoru, rektorun məsləhətçisi - mətbuat xidmətinin rəhbəri, respublikanın əməkdar müəllimidir. Tibb sahəsində tanınmış alim və pedaqoqdur.

Mübariz Allahverdiyev 1942-ci il noyabrın 19-da Xocalıda dünyaya göz açıb. İş elə gətirib ki, orta təhsilini üç məktəbdə almalı olub: əvvəlcə Xocalı kənd yeddiillik məktəbini bitirib, sonra VIII sinfi Şuşadakı 1 nömrəli, IX-X sinifləri isə Xankəndidəki Nizami adına 4 nömrəli məktəbdə oxuyub.

Tibb İnstitutunu bitirdikdən sonra öz xahişi ilə təyinatını Dağlıq Qarabağ Muxtar Vilayətinə alıb. Lakin cavan həkimi erməni məmurlar görmək belə istəmədilər.

Böyük çətinliklərdən sonra Dağlıq Qarabağın ən ucqar, ermənilərin Naxçıvanik adlandırdığı Pir Camal kəndindəki sahə xəstəxanasında işə düzələ bildi.

Bir neçə ay sonra Mübariz Allahverdiyev sanki öz doğma el-obasından didərgin salınaraq Türkmənistana üz tutur.

Köhnə-Ürgəncdə həkimlik fəaliyyətini davam etdirən Mübariz Allahverdiyev 1969-cu ilin fevral ayında Bakıdan bir teleqram alır. O zaman N.Nərimanovun adını daşıyan Azərbaycan Dövlət Tibb İnstitutunun elmi katibi Oskar Hüseynov teleqramda bildirir ki, o, institutun böyük elmi şurasının qərarı ilə Normal anatomiya kafedrasının müəllimi seçilib və bu vəzifədə işə başlaya bilər.

M.Allahverdiyev ATİ-də müəllimlik fəaliyyətinə mart ayından başlayır və eyni zamanda Xətai metrosunun yanındakı təcili tibbi yardım stansiyasında gecə növbələrində həkimlik fəaliyyətini də davam etdirir. 1970-ci ilin sentyabrında müsabiqə yolu ilə Normal anatomiya kafedrasının assistenti, 1973-cü ilin sonunda kafedranın baş müəllimi, 1986-cı ilin noyabrında dosent seçilir. 2010-cu ilin dekabr ayından indiyədək isə ATU-nun İnsan anatomiyası kafedrasının professorudur.

İllər boyu ucqar kənd xəstəxanalarından başlayaraq dünyanın böyük klinikalarınadək olduğu bütün yerlərdə topladığı təcrübə onun elmi araşdırma və axtarışlarına da yeni istiqamət verir. Belə ki 1985-ci ildə professor Gülağa Hacıyevin rəhbərliyi altında Tbilisi şəhərində «Budun dəri sinirlərinin makromikroskopik anatomiyası və mieloarxitektonikası» mövzusunda namizədlik dissertasiyası müdafiə edir. Bundan sonra Rusiya Tibb Elmləri Akademiyasının akademiki, əməkdar elm xadimi, professor Vaqif Şadlinskinin məsləhətçiliyi ilə apardığı uzunmüddətli və ardıcıl axtarışlar sayəsində 2008-ci ildə «Postnatal ontogenezdə insanın qaraciyərxarici öd yollarının vəzi və limfoid aparatlarının struktur-funksional səciyyəsi və morfogenezinin qanunauyğunluqları» mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edir.

Mübariz Allahverdiyev həkim, alim olmaqla yanaşı, həm də pedaqoqdur. Əməkdar müəllim adına layiq görülüb. O, gənclərlə işləməyi çox sevir. Elə bu xüsusiyyətini nəzərə alaraq 1971-ci ildə kafedranın müdiri, əməkdar elm xadimi, professor K.Balakişiyev onun kafedranın tədris hissə müdiri vəzifəsinə keçməsinə təqdimat verir. 1990-cı ilə qədər - 20 ilə yaxın bir dövr ərzində o, həmin vəzifəni yerinə yetirir. 1991-ci il iyulun 1-də birinci müalicə-profilaktika fakültəsinin birinci-ikinci kurslar üzrə dekan müavini vəzifəsinə təyin edilir.

1993-cü ilin fevral ayından institutun elmi katibi vəzifəsində çalışır. 2000-ci ilin aprel ayına qədər bu vəzifədə işləyir.

2001-2006-cı illərdə ATU-nun internatura şöbəsinin müdiri, 2006-cı ilin sentyabrından pediatriya fakültəsinin dekan müavini vəzifələrini yerinə yetirir. 2008-ci ildən isə ona ATU-nun rektorluğu yanında məsləhətçi (mətbuat xidmətinin rəhbəri) vəzifəsi tapşırılır. Hazırda da bu vəzifədə çalışır.

Yeri gəlmişkən qeyd edək ki, Mübariz müəllim, ümumiyyətlə, mətbuatı sevən və onunla bağlı olan insandır. Hələ 1975-1982-ci illərdə Azərbaycan televiziyasının «Tədris» proqramında «Anatomiya, fiziologiya, gigiyena» fənni üzrə orta məktəb şagirdləri üçün canlı dərslər aparıb.

Söhbət Mübariz müəllimin həm də 200-dən çox çap olunmuş elmi və elmi-kütləvi işindən, o cümlədən 3 monoqrafiyasından və 4 biblioqrafik məlumat kitabçasından gedir. Böyük alim və siyasi xadim, professor Əziz Əliyevə, akademik Əhliman Əmiraslanova, professor Vaqif Şadlinskiyə həsr etdiyi əsərlər də bunların sırasındadır.

17 dərslik və dərs vəsaitlərinin, 2 səmərələşdirici təklifin həmmüəllifidir. Onun elmi redaktorluğu altında 14 əsər çap edilib. 8 nəfərin namizədlik dissertasiyasının resenzenti olub.

Mübariz müəllim, sözün həqiqi mənasında, əsl ziyalıdır. Onun xarakteri əsl alim şəxsiyyətinin bütövlüyünə xidmət edir. O, sadə, təvazökar, iddiasız həkim, alim və pedaqoqdur. Bəlkə də bu sadəlik, iddiasızlıq bu insanın çatdığı ən yüksək zirvədir. Mübariz müəllimin söhbətlərində güclü məntiq və səlistlik diqqəti ilk baxışdan cəlb edir. Geniş mütaliə sahibidir. O, yüksək intellektli tədqiqatçı və peşəkar alim kimi problemlərin içərisində mühüm olanları seçməyi bacaran, geniş ümumiləşdirmələrə və hərtərəfli qabiliyyətə malik təfəkkür sahibi, sənətinin vurğunu, tələbələri, dissertant və aspirantları ilə işləməyi sevən məsləhətçi, elmi rəhbər, ciddi və obyektiv opponent, təmənnasız və səmimi dostdur.

2011-ci il fevral ayının 24-də ATU-nun rektoru akademik Əhliman Əmiraslanov və Türkiyənin Qazi Universitetinin rektoru professor, doktor Riza Ayhanın birgə təşəbbüsləri ilə Xocalı soyqırımına həsr edilmiş ilk teleкörpüdə yayımlanan çıxışı ictimaiyyətin diqqətini cəlb etmişdi. Bu ilin fevral ayında «Xocalı soyqırımını tanıtma» qrupu ilə İstanbula ezamiyyətə gedəndə də qəlbindəki vətən dərdini özü ilə aparmışdı.

Qarabağda, Xocalıda «həkimlər ailəsi» kimi tanınan Allahverdiyevlərin bütün üzvləri kimi Mübariz müəllim də o yerlərə dönməyi, bir vaxtlar özünün ilk addımlarını atdığı, indi əzizlərinin ruhunun dolaşdığı həmin məkanı görməyi çox arzulayır. Ömrünün 70-ci pilləsinə çatsa da, doğulduğu yurd yerini yenidən quracaq insanlara əlindən gələn köməyi göstərmək əzmində və istəyindədir. Deyir ki, oraya dönəcək «həkimlər ailəsi»nin üzvləri indi daha çoxdur. Onların arasında Mübariz Allahverdiyevin oğlu Elnur, qızı Tərانə xanım, eləcə də çoxsaylı yetirmələri var.

**İnsan anatomiyası kafedrasının əməkdaşları**

# Azərbaycan Tibb Universitetinin əməkdaşları Türkiyədə keçirilmiş konfransda çıxış etmişlər

**◆ Türkiyənin İstanbul şəhərində Avropa Cərrahlar Cəmiyyətinin (ESS) on altıncı illik konfransı keçirilmişdir.**

Konfransda ölkəmizi Azərbaycan Tibb Universiteti ilə yanaşı, müxtəlif tibb ocaqlarının nümayəndələri təmsil etmişlər.

Tədbirdə ATU-nun birinci cərrahi xəstəliklər kafedrasının əməkdaşları Nadir Zeynalov və Taryel Ömərovun məruzələri dinlənilmişdir.

Konfransda müasir texnologiyaların, o cümlədən robot cərrahiyyəsinin inkişafı ilə bağlı geniş müzakirələr aparılmış, tibbin müxtəlif sahələrinə aid yeniliklər barədə məlumat verilmişdir. Bununla yanaşı, Türkiyənin tanınmış tibb ocaqlarında "Robotik cərrahiyyə", "Laparoskopik kolorektal cərrahiyyə", "Endorektal-endoanal ultrasonoqrafiya" mövzusunda kurslar təşkil edilmişdir.

# Azərbaycanda kardiocərrahiyyə xidmətinin təkmilləşdirilməsi işi davam edir

**◆ Səhiyyə Nazirliyi ölkəmizdə kardiocərrahiyyə xidmətinin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirləri davam etdirir.**

Nazirliyin mətbuat xidmətindən bildirmişlər ki, belə tədbirlərdən biri də akademik Mustafa Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzində təşkil olunmuşdur.

Belarusun Kardiologiya və Kardiocərrahiyyə İnstitutunun aparıcı mütəxəssisləri bu elm müəssisəsində noyabrın 11-dən 25-dək azərbaycanlı müdavimlər üçün seminarlar və ustad dərsləri keçmişlər. Bundan əlavə, belaruslu kardioloqlar azərbaycanlı həmkarları ilə birgə cərrahi əməliyyatlarda iştirak etmişlər.

# Azərbaycan cərrahları türkiyəli həmkarları ilə birlikdə 30-dək cərrahiyyə əməliyyatı keçirəcəklər

**Azərbaycan cərrahları türkiyəli həmkarları ilə birlikdə 2 aylıq uşaqdan tutmuş 73 yaşadək insanlar üzərində 30-dək cərrahiyyə əməliyyatı keçirəcəklər. Bu əməliyyatlar sırasında açıq və qapalı ürək əməliyyatları da olacaqdır.**

Bu sözləri noyabrın 27-də akademik Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzində "Azərbaycan-Türkiyə səhiyyə həftəsi"nə həsr olunmuş mətbuat konfransında səhiyyə nazirinin müavini Elsevər Ağayev söyləmişdir.

"Səhiyyə həftəsi"nin dekabrın 3-də başa çatacağını bildirən nazir müavini demişdir ki, hazırda bu məqsədlə Türkiyənin 24 nəfərlik böyük nümayəndə heyəti Bakıda səfərdədir.

Tədbirdə Səhiyyə Nazirliyinin dekabrın 1-dən 31-dək ölkə ərazisində "Sağlam həyat uğrunda" devizi ilə profilaktik tədbirlər aylığı keçirəcəyi də diqqətə çatdırılmışdır. E.Ağayev bildirmişdir ki, bu tədbirlər ölkənin bütün regionlarını əhatə edəcəkdir. Məqsəd insanları sağlam həyat tərzinə cəlb etmək və bunun üçün müayinələr aparmaqdır.

"Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutlarının briqadaları regionlarda vətəndaşların müayinəsini aparacaqlar. Çünki insanlar xəstələndikdən sonra onların müalicəsi iqtisadi baxımdan baha başa gəlir", - deyə nazir müavini bildirmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycanda bəzi xəstəliklərlə bağlı göstəricilərin artmasına baxmayaraq, ölüm göstəriciləri 2 dəfə azalmışdır. Əgər 6-7 il əvvəl qeydiyyata alınmış şəkərli diabet xəstələrinin sayı 60 min nəfər idisə, bu gün onların sayı 160 mindən çoxdur.

Şəkərli diabet xəstələrinin sayının artmasını onların qeydiyyata düşməsi ilə əlaqələndirən E.Ağayev demişdir ki, 10 il əvvəl Azərbaycanda hemodializ seansı aparılan xəstələrin sayı 20 nəfər idisə, bu gün onların sayı 1900-ə çatmışdır. Vurğulanmışdır ki, 2 min 200-dən artıq talassemiyalı, 1200-dən çox hemofiliyalı xəstəyə dövlət tərəfindən qayğı göstərilir.

E.Ağayev demişdir ki, dağınıq skleroz xəstəliyi ilə bağlı qəbul olunmuş yeni qanun nəticəsində artıq 2013-cü ildən etibarən bu xəstəlikdən əziyyət çəkən insanlar dövlət vəsaiti hesabına dərmanlarla təmin olunacaqlar.

Mətbuat konfransında birgə aparılacaq əməliyyatlardan danışan Türkiyənin səhiyyə nazirinin müavini Nihat Tosun isə bildirmişdir ki, "Səhiyyə həftəsi" başa çatdıqdan sonra da türk həkimlərin bir neçəsi əməliyyatların sonrakı gedişi ilə maraqlanmaq üçün Bakıda qalacaqdır.

# Gündüz yuxusu sağlamlığın və xoş əhvalın təminatıdır

**Gündüz yuxusu ürəyə və damar sisteminə müsbət təsir göstərir.**

Kordioloqlar bildirmişlər ki, günorta yuxusu insanın ürək-damar sistemində stressdən yaranmış gərginliyi aradan qaldırır. Onlar ürək xəstəliklərindən əziyyət çəkənlərə tövsiyə edir ki, günorta yuxusuna vaxt ayırsınlar.

"Komsomolskaya pravda"nın məlumatına görə, nahardan sonrakı yuxu ömrü uzadır, arıqlamağa yardım edir. Nahardan sonra yarım saat yatmaqla ömrü 10 il uzatmaq olar. Bundan başqa, nahardan sonrakı yuxu informasiyanın daha rahat qəbul olunmasına və yaddaşın güclənməsinə yardım edir. Daha doğrusu, günorta yatmış adamlar digərləri ilə müqayisədə daha pozitiv olurlar.

Medlinks portalının məlumatına görə, alimlərin araşdırması göstərir ki, nahardan sonrakı yuxu ilə bədən çəkisini də normada saxlamaq olar. Əgər siz əzələ kütləsini artırmaq istəyirsinizsə, nəzərə alın ki, 30 dəqiqəlik yuxu əzələlərdəki maddələr mübadiləsini 40 faizədək artırır.

# "İRƏLİ"nin növbəti təqdimatı Azərbaycan Tibb Universitetində

**Azərbaycan Tibb Universitetində "İRƏLİ" İctimai Birliyinin təqdimatı keçirilib.**

Təqdimatda Azərbaycan Tibb Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Elşad Novruzov, "İRƏLİ" İctimai Birliyinin sədri Rauf Mərdiyev, birliyin baş katibi Nərmin Məmmədova, birliyin İnsan Resursları üzrə katibi Rövşən Camalov və "İRƏLİ" İdman Mərkəzinin rəhbəri Niyaz Əliyev iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Elşad Novruzov iştirakçıları salamlayaraq universitetin fəaliyyəti haqqında və son illər əldə etdiyi uğurlar barədə danışıb.

Rauf Mərdiyev bu ictimai qurumun gənclərin gələcək fəaliyyətində və karyeralarındakı önəmindən söhbət açıb.

Daha sonra Rövşən Camalov tərəfindən "İRƏLİ" İctimai Birliyinin tarixi, fəaliyyəti, gənclər üçün yaratdığı imkanlar barədə geniş məlumat verilib.

Təqdimatdan sonra tələbələri maraqlandıran suallar cavablandırılıb və "İRƏLİ" İctimai Birliyini Tibb Universitetində təmsil edəcək koordinatorların adları açıqlanıb.





Qeyd edildi ki, "İRƏLİ" İctimai Birliyi hər tədris ilində Azərbaycanın ali təhsil ocaqlarında təşkilatın təqdimatını həyata keçirir. Bildirilib ki, bu cür təqdimatların əsas məqsədi universitet tələbələrinin ictimai fəaliyyətə cəlb olunması, "İRƏLİ" İctimai Birliyinin fəaliyyəti və təşkilatda gənclər üçün yaradılan imkanlarla tanış etməkdir.

**Qəmər ƏLİQIZI**

# İdman beyni inkişaf etdirən ən səmərəli vasitədir

**ABŞ-ın Kaliforniya Universitetində aparılan yeni araşdırma yetkin yaşlı insanlar arasında idman edənlərin beyninin daha gənc və sağlam qaldığını müəyyənləşdirmişdir.**

Araşdırmaya rəhbərlik edən alim Kira Raci yaşlanma müddətində fiziki fəaliyyətin beynin boz maddəsinə necə təsir etməsi üzərində dayandıqlarını bildirmişdir. Baş beyin qabığı da adlandırılan boz maddə istifadə etdiyimiz məlumatların çoxunun yarandığı sahə hesab edilir. Neyronlardan və sinir liflərindən ibarət olan boz maddənin azalması zamanı əqli zəiflik və altsheymer kimi xəstəliklər ortaya çıxır.

Tədqiqat zamanı 69-95 yaş arası 876 insanın beyinlərinin üçölçülü fotoşəkilləri çəkilmişdir. Bu araşdırma təcrübədə iştirak edənlərin idmanla məşğul olarkən daha çox kalori yandırdığını və buna görə də digərlərinə nisbətən daha çox boz maddəyə malik olduqlarını bildirmişlər.

ABŞ-ın Mayo klinikasından Deyv Knopman adlı bir mütəxəssisə görə isə bu nəticələri "beyni daha böyük olanlar fiziki baxımdan daha aktiv olur" şəklində də şərh etmək olar.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin IV kurs, $735^{b}$ qrup tələbəsi Səfərzadə Fərəh Fəqan qızının adına verilmiş tələbə biletii itdiyi üçün etibarsız sayılır.

Pediatriya fakültəsinin V kurs, $436^{a}$ qrup tələbəsi Kərimov Elnur Əsəd oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə- profilaktika fakültəsinin IV kurs, $210^{b}$ qrup tələbəsi Hacızadə Üzeyir Məsim oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə- profilaktika fakültəsinin IV kurs, $206^{a}$ qrup tələbəsi Bayramova Türkan Əlikömək qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə -profilaktika fakültəsinin I kurs, $308^{a}$ qrup tələbəsi Qurbanov Böyükağa Həsənağa oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə- profilaktika fakültəsinin IV kurs $272^{a}$ qrup tələbəsi Həmzəzadə Elnarə Əli qızının adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin IV kurs, $20^{c}$ qrup tələbəsi Zeynalov Ceyhun Mirzə oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, $742^{b}$ qrup tələbəsi Əlizadə Sahib Azər oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə proflaktika fakültəsinin IV kurs, $203^{b}$ qrup tələbəsi Əliyev Orxanın adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Hərbi tibb fakültəsinin VI kurs, $1102^{b}$ qrup tələbəsi Süleymanov Elnur Aydəmir oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

"Təbib" qəzetinin redaksiyası və Əsaslı kitabxananın kollektivi Ulduz xanıma anası

**Gilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mühasibatlıq şöbəsinin kollektivi iş yoldaşları Ulduz xanıma anası

**Gilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın müdiri, akademik Namiq Əliyevə nəvəsi

**Tamerlan Əliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əsaslı kitabxananın kollektivi xidmət şöbəsinin əməkdaşı İmarət Mehralıyevaya anası

**Hüquqət Mehralıyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ETM- nın əməkdaşları terapevtik stomatologiya kafedrasının müdiri, dosent

**Rza Qasımovun**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın dosenti Tapdıq Əliyevə bacısı

**Yaxşı Abdullayevanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji fiziologiya, tibbi biologiya kafedralarının əməkdaşları Qumru Abdullayevaya anası

**Yaxşı xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Patoloji fiziologiya kafedrasının əməkdaşları kafedranın assistenti Leyla Səfərəliyevaya babası

**Qəhrəman Dünyamalıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cərrahi xəstəliklər kafedrasının əməkdaşları iş yoldaşları Ədilə xanım Abbasovaya əzizi

**Arifin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi boloji fizika və informatika kafedrasının əməkdaşları iş yoldaşları Pəri İsaqovaya anası

**Büllur xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Pediatriya fakültəsinin uşaq yoluxucu xəstəlikləri kafedrasının əməkdaşları kafedranın assistenti Məlahət Bağırovaya qardaşı

**Fərhadın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şua diaqnostikası və şua terapiyası və xarici dillər kafedralarının əməkdaşları mikrobiologiya və immunologiya kafedrasının professoru Mehman Əliyevə qardaşı

**Akif müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məmməd Məmmədov, Yaşar Qaralıyev və Mənsur Ələkbərli dostları Araz Məlikova anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Təbib" qəzetinin redaksiyası və Əsaslı kitabxananın kollektivi Məhərrəm Bəşirova əmisi

**aşıq İslamın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kafedrasının əməkdaşları iş yoldaşları İradə İmanovaya xalası

**Gövhər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın alman dili müəllimi Zəminə Mustafayevaya əzizi

**Liza xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları iş yoldaşları Həqiqət Mehdiyevaya əzizi

**Dilbər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tibbi biologiya və genetika kafedrasının əməkdaşları kafedranın müəllimiAbaszadə Zümrüd Əliqulu qızına dayısı

**Yaqıyev Kamran Mirzəşərif oğlunun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 967